AZƏRBAYCAN RESPUBLİKASININ
İQTİSADİYYAT NAZİRLİYİ YANINDA
DÖVLƏT VERGİ XİDMƏTİ

# SADƏLƏŞDİRİLMİŞ VERGİ

BAKI – 2026

**Yalnız sadələşdirilmiş verginin ödəyiciləri kimlərdir?**

- Mülkiyyətində və ya istifadəsində olan avtonəqliyyat vasitələri ilə (beynəlxalq sərnişin daşımaları istisna olmaqla) Azərbaycan Respublikasının ərazisində sərnişin daşımalarını (o cümlədən taksi ilə) həyata keçirən şəxslər (bu fəaliyyət üzrə könüllü ƏDV qeydiyyatına alınan şəxslər istisna olmaqla);
- İdman mərc oyunlarının operatoru və idman mərc oyunlarının satıcıları, habelə lotereya təşkilatçısı və lotereya biletlərinin satıcıları olan şəxslər;
- Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini həyata keçirən fiziki şəxslər;
- Mülkiyyətində olan torpaq sahələrinin təqdim edilməsini həyata keçirən fiziki şəxslər;
- Fəaliyyət zamanı işçi cəlb edən fiziki şəxslər istisna olmaqla, vergini aylıq sabit dərəcəyə müvafiq əmsallar tətbiq edilməklə məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqı ilə birlikdə ödəyən və həmin fəaliyyət növləri ilə fərdi qaydada məşğul olan fiziki şəxslər.

# Sadələşdirilmiş verginin ödəyicisi olmaq hüququna malikdir:

- ƏDV məqsədləri üçün qeydiyyata alınmamış və ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) vergi tutulan əməliyyatların həcmi 200.000 manat və ondan az olan şəxslər (vergi tutulan əməliyyatların həcmi müəyyən edilərkən vergi ödəyicisinin pərakəndə ticarət və vergi orqanında uçotda olmayan şəxslərə göstərilən xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan dövriyyəsi **0,5 əmsal tətbiq edilməklə** nəzərə alınır);

Bu şəxslər hər il aprel ayının **20-dən gec olmayaraq**, "Sadələşdirilmiş verginin bəyannaməsi"ni və ya bu hüquqdan istifadə etməyəcəyi barədə yazılı məlumatı uçotda olduğu vergi orqanına təqdim etməlidir. Bu halda seçilən metodun təqvim ilinin sonunadək dəyişdirilməsi hüququ olmur.

- Qeyd olunan müddətdə bəyannamə və ya yazılı məlumat təqdim edilmədikdə, vergi orqanı vergi ödəyicisinin əvvəlki vergi ilində seçdiyi metodu tətbiq edir.
- İl ərzində yeni fəaliyyətə başlayan vergi ödəyicisi vergi uçotuna alınmaq üçün təqdim etdiyi ərizədə seçdiyi metodu tətbiq edir.
- Vergi ödəyicisinin ƏDV qeydiyyatı ləğv edildikdə, o, öz fəaliyyətini sadələşdirilmiş vergi və ya gəlir (mənfəət) vergisi ödəyicisi kimi davam etdirmək barədə müraciət edə bilər.

- Vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər.
  - Bu şəxslərin vergiyə cəlb olunan əməliyyatlarının ümumi məbləği əvvəlki tam 12 təqvim ayı ərzində 100.000 manatdan çox deyilsə və vergi ödəyicisi bu rejimdə azı 1 il ərzində fəaliyyət göstərmişdirsə, o, istənilən vaxt fəaliyyətini sadələşdirilmiş vergi və ya gəlir (mənfəət) vergisi ödəyicisi kimi davam etdirmək barədə müraciət edə bilər.

## Sadələşdirilmiş verginin ödəyicisi ola bilməzlər:

- Vergi ödəyicisi kimi vergi orqanında uçotda olmayan şəxslərə (əhaliyə) görülən işlərdən və göstərilən xidmətlərdən başqa, **işlərin görülməsini və xidmətlərin göstərilməsini** həyata keçirən şəxslər (respublika ərazisində sərnişindaşıma (o cümlədən taksi ilə) fəaliyyəti həyata keçirən və aylıq sabit verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqqının ödəyiciləri olan fiziki şəxslər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsi istisna olmaqla);
- **Kredit** təşkilatları, **sığorta** bazarının peşəkar iştirakçıları, **investisiya** fondları və bu fondların idarəçiləri, **qiymətli kağızlar** bazarında lisenziyalaşdırılan şəxslər, **lombardlar.**

Yuxarıda göstərilən müddəalar icbari sığorta müqavilələri üzrə xidmət göstərən sığorta agentlərinə tətbiq edilmir.

- Əmlakın **icarəyə** verilməsindən və **royaltidən** gəlir əldə edənlər;
- Qeyri-dövlət pensiya fondları;
- Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən müəyyən edilmiş təbii inhisar subyektləri;
- Mülkiyyətində olan əsas vəsaitlərin ilin əvvəlinə (vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ictimai iaşə fəaliyyəti ilə məşğul olan şəxslər və sadələşdirilmiş verginin ödəyiciləri olan şəxslər istisna olmaqla) qalıq dəyəri 1.000.000 manatdan artıq olan şəxslər;
- Publik hüquqi şəxslər;
- Rüb ərzində işçilərinin (faktiki işə cəlb edilən) orta sayı **10 nəfərdən çox olan istehsal** fəaliyyətini həyata keçirən şəxslər;
- **Topdansatış** ticarət fəaliyyəti qaydasında malların təqdim edilməsini həyata keçirən şəxslər;

- **Aksizli və məcburi nişanlama** ilə nişanlanmalı olan mallar istehsal edən şəxslər;
- **Qızıl**, ondan hazırlanmış zərgərlik və digər məişət məmulatlarının, habelə almazın (emal olunmuş, çeşidlənmiş, çərçivəyə salınmış və bərkidilmiş və emal olunmamış, çeşidlənməmiş, çərçivəyə salınmamış və bərkidilməmiş almaz) satışını həyata keçirən şəxslər;
- **Xəz-dəri** məmulatlarının satışını həyata keçirən şəxslər;
- İcbari sığorta müqavilələri üzrə xidmət göstərən şəxslər istisna olmaqla, **lisenziya** tələb olunan fəaliyyət növü ilə məşğul olan şəxslər.

**Sadələşdirilmiş vergi metodunu tətbiq etmək hüququ saxlanılan şəxslər:**

- **Malların pərakəndə satışı ilə yanaşı**, eyni zamanda topdansatışını da həyata keçirən şəxslərin rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatlarının həcmi ümumi ticarət əməliyyatlarının (satışdankənar gəlirlər istisna olmaqla) həcminin **30 faizindən çox deyilsə**;
- **Əhaliyə xidmətlə (işlə) yanaşı** vergi ödəyici kimi vergi orqanlarında uçotda olan şəxslərə xidmətlərin göstərilməsini və işlərin görülməsini həyata keçirən şəxslərin rüb ərzində elektron qaimə-faktura ilə rəsmiləşdirilməli olan əməliyyatlarının (qeyri-rezident hüquqi şəxslər və sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident fiziki şəxslərə hesab-faktura (invoys) əsasında göstərilən xidmətlərin və görülən işlərin dəyəri də daxil olmaqla) həcmi xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə ümumi əməliyyatlarının (satışdankənar gəlirlər istisna olmaqla) həcminin **30 faizindən çox deyilsə.**

Bu şərtlər malların təqdim edilməsindən, işlərin görülməsindən və xidmətlərin göstərilməsindən ibarət qarışıq əməliyyatlar aparılan hallara da tətbiq edilir.

Qeyd edilən şərtlər ödənilmədikdə sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ həmin hesabat rübündən **sonrakı ayın 1-dən ləğv edilir.**

**Məsələn,**

Rüb ərzində xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə ümumi əməliyyatların (satışdankənar gəlirlər istisna olmaqla) həcmi 10.000 manat, ondan elektron qaimə-faktura təqdim edilməklə göstərilmiş ümumi əməliyyatların həcmi isə 2.900 manat olmuşdur.

Bu halda rüb ərzində elektron qaimə-faktura təqdim etməklə xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə əməliyyatların həcmi xidmətlərin göstərilməsi və işlərin görülməsi üzrə ümumi əməliyyatların həcminin 30%-dən (2.900/10.000*100=29%) çox olmadığı üçün sadələşdirilmiş vergitutma metodu tətbiq edilə bilər. Əks halda isə sadələşdirilmiş vergi ödəyicisi olmaq hüququ həmin hesabat rübündən sonrakı ayın 1-dən ləğv edilir.

Sadələşdirilmiş vergi ödəyən hüquqi şəxslər ƏDV-nin və mənfəət vergisinin, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxslər bu fəaliyyət üzrə gəlir vergisinin və ƏDV-nin ödəyicisi deyildirlər.

## Vergi dərəcələri

- **İdman mərc oyunlarının operatorları üzrə**

İdman mərc oyunlarının operatoru bu oyunların biletlərinin satışından əldə edilmiş vəsaitdən **6 faiz** dərəcə ilə vergi hesablamalıdır.

- **İdman mərc oyunlarının satıcıları üzrə**

İdman mərc oyunlarının satıcısınızsa, operatorun Sizə verdiyi haqdan (mükafatdan) **4 faiz** dərəcə ilə vergi hesablamalısınız.

- **Lotereya təşkilatçıları üzrə**

Lotereya təşkilatçısı lotereya biletlərinin satışından əldə edilmiş vəsaitdən **6 faiz** dərəcə ilə vergi hesablamalıdır.

- **Lotereya biletlərinin satıcıları üzrə**

Lotereya biletlərinin satıcısısınızsa, lotereya təşkilatçısının Sizə verdiyi haqdan (mükafatdan) **4 faiz** dərəcə ilə vergi hesablamalısınız.

- **İctimai iaşə fəaliyyəti üzrə**

İctimai iaşə fəaliyyəti ilə məşğul olmaqla vergi tutulan əməliyyatlarınızın həcmi ardıcıl **12 aylıq** dövrün istənilən ayında (aylarında) **200.000 manatdan** artıqdırsa və Siz sadələşdirilmiş vergitutma metodunu seçmişsinizsə, fəaliyyətinizdən əldə etdiyiniz vəsaitin məbləğindən (ümumi hasilatın həcmindən) və satışdankənar gəlirlərdən (ödəmə mənbəyində vergi tutulmuş gəlirlər istisna edilməklə) **8 faiz** dərəcə ilə vergi hesablamalısınız. Lakin əhaliyə göstərilən xidmətlər üzrə nağdsız qaydada POS-terminal vasitəsilə aparılan ödəmələr əsasında formalaşan vergitutma obyekti üzrə isə 2026-cı il yanvarın 1-dən 3 il müddətinə **6 faiz dərəcə** ilə hesablanır. Bu faiz dərəcəsini tətbiq etmək hüququnun əldə edilməsi üçün nağdsız ödəmələr nəzarət-kassa aparatına vahid əməliyyat sistemində inteqrasiya olunmuş POS-terminal vasitəsilə aparılmalıdır.

İctimai iaşə fəaliyyəti ilə bağlı müvafiq güzəşt hüququnun əldə edilməsi üçün nağdsız ödəmələr zamanı əhaliyə təqdim edilən nəzarət-kassa aparatı (NKA) çeklərində “Nağdsız əməliyyatlar üzrə tranzaksiya nömrəsi (RRN)” barədə məlumatların Dövlət Vergi Xidmətinə ötürülməsi təmin edilməlidir.

Vergi güzəştindən istifadə yalnız “Nağdsız əməliyyatlar üzrə tranzaksiya nömrəsi (RRN)” barədə məlumatların vergi orqanının informasiya sistemlərinə inteqrasiya edildiyi halda mümkündür.

Qeyd edilən tələblərin yerinə yetirilməməsi güzəşt hüququndan istifadənin məhdudlaşdırılmasına, eləcə də vergi bəyannamələrində uyğunsuzluqların yaranmasına səbəb ola bilər.

Vergi güzəştindən istifadə edilməsi məqsədilə nağdsız ödəmələrin nəzarət-kassa aparatına vahid əməliyyat sistemində inteqrasiya olunmuş POS-terminal vasitəsilə aparılmasının və fiskal məlumatların (o cümlədən RRN və digər identifikasiya göstəricilərinin) Dövlət Vergi Xidmətinin informasiya sisteminə ötürülməsinin təmin edilməsi üçün kassa aparatı üzrə Sizə xidmət göstərən operatorlara müraciət edilməsi tövsiyə edilir.

- **Digər fəaliyyət üzrə**

Malların (işlərin, xidmətlərin) təqdim edilməsindən əldə etdiyiniz vəsaitin məbləğindən (ümumi hasilatının həcmindən) və satışdankənar gəlirlərdən (ödəmə mənbəyində vergi tutulmuş gəlirlər istisna edilməklə) **2 faiz** dərəcə ilə vergi hesablamalısınız.

## Azadolma və güzəştlər

- Kənd təsərrüfatı məhsullarının istehsalçıları (o cümlədən sənaye üsulu ilə) tərəfindən özlərinin istehsal etdikləri kənd təsərrüfatı məhsullarının satışından əldə edilmiş hasilatın həcmi - **2014-cü il yanvarın 1-dən 13 il müddətinə;**

- Vergi Məcəlləsi ilə müəyyən olunmuş qaydada gəlirlərin və xərclərin uçotunu aparan, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan və əməliyyatlarının həcmi ardıcıl **12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatadək** olan rezident müəssisənin təsisçisi (payçısı) və yaxud səhmdarları olan şəxslərə ödənilən dividendlər;

- Qanunla müəyyən edilmiş hallarda dövlət büdcəsinə olan vergi borclarının silinməsindən əldə olunan gəlir;

- Media subyektlərinin (audiovizual media subyektləri istisna olmaqla) öz fəaliyyətlərindən əldə etdikləri gəlirlər (o cümlədən reklam gəlirləri), habelə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi tərəfindən verilən maddi yardımlar – **2023-cü il yanvarın 1-dən 6 il müddətinə;**

- Sadələşdirilmiş verginin ödəyicisi kimi fəaliyyət göstərən mikro sahibkarlıq subyekti olan fiziki şəxslər tərəfindən özlərinə görə ödədiyi rüblük məcburi dövlət sosial sığorta haqqı məbləğinin **25 faizi 2024-cü il yanvarın 1-dən 3 il müddətinə** vergi ödəyicisinin rüb ərzində hesablanmış sadələşdirilmiş vergi öhdəliyindən (həmin öhdəliklərin məbləğindən çox olmamaqla) çıxılır.

Unutmayın ki...

- **“Sadələşdirilmiş verginin bəyannaməsi”ni hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq** qeydiyyatda olduğunuz vergi orqanına təqdim etməli və həmin müddətdə hesablanmış vergini dövlət büdcəsinə ödəməlisiniz*;
- Sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər minimum aylıq əməkhaqqının 15 faizindən az olmamaq və 100 faizindən çox olmamaq şərt ilə, gəlirlərin (xərclər çıxılmadan) 2 faizi miqdarında məcburi dövlət sosial sığorta haqqı hesablamalı və bu barədə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına “Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə (hesabat)” və ya fəaliyyət göstərilmədikdə fəaliyyətin olmaması barədə arayış təqdim etməlidir;

**Qeyd:** 2025-ci ilin 1 yanvar tarixindən minimum əmək haqqı 400 manat təşkil etdiyindən sahibkarlıq fəaliyyəti üzrə MDSS haqqı 60 manatdan az və 400 manatdan çox olmamalıdır.

- **Məcburi dövlət sosial sığorta haqqını** hər ay üzrə **növbəti ayın 15-dən** gec olmayaraq, tam məbləğdə yalnız nağdsız hesablaşma qaydasında ödəməlisiniz.

---

* Sadələşdirilmiş verginin ödəyicisi kimi fəaliyyət göstərən mikro sahibkarlıq subyekti olan fiziki şəxssinizsə özünüzə görə ödədiyiniz rüblük məcburi dövlət sosial sığorta haqqı məbləğinin **25 faizini 2024-cü il yanvarın 1-dən 3 il müddətinə** rüb ərzində hesabladığınız sadələşdirilmiş vergi öhdəliyinizdən (həmin öhdəliklərin məbləğindən çox olmamaqla) çıxa bilərsiniz.

**Onu da bilməlisiniz ki, ...**

Fərdi sahibkar kimi sahibkarlıq fəaliyyəti üzrə hər ay üçün minimum aylıq əməkhaqqının **4 faizi** miqdarında icbari tibbi sığorta haqqı hesablamalı, hər rüb üzrə rüb başa çatdıqdan sonra **növbəti ayın 20-dən gec olmayaraq** vergi orqanına “Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulmalar üzrə vahid bəyannamə (hesabat)” təqdim etməli və sonrakı ayın 15-dən gec olmayaraq tam məbləğdə aidiyyəti fonda ödəməlisiniz.

**Qeyd:**

Məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları, sərnişin daşınması, daşınmaz əmlakın təqdim edilməsi fəaliyyəti üzrə və aylıq sabit məbləğdə sadələşdirilmiş verginin, məcburi dövlət sosial sığorta və icbari tibbi sığorta haqlarının hesablanması və ödənilməsi, habelə işğaldan azad edilmiş ərazilərdə həmin ərazinin rezidentlərinə sadələşdirilmiş vergi üzrə verilən azadolmalar, həmin azadolmaların tətbiq edildiyi subyektlər və əməliyyatlar barədə məlumatları aidiyyəti bukletlərdən əldə edə bilərsiniz.

## MALİYYƏ SANKSİYALARI, FAİZLƏR VƏ DİGƏR MƏSULİYYƏT TƏDBİRLƏRİ

Vergi və sığorta qanunvericiliyinin pozulması hallarına görə tətbiq olunan maliyyə sanksiyaları və digər məsuliyyət tədbirləri barədə məlumatı **"Maliyyə sanksiyaları, faizlər və digər məsuliyyət tədbirləri barədə Yaddaş"** adlı bukletdən əldə edə bilərsiniz.

VERGİLƏRƏ AİD NƏŞRLƏR

195-1

AZ1029, Azərbaycan, Bakı, Heydər Əliyev prospekti, 155
Tel.: (+994 12) 403 89 70; Faks: (+994 12) 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az